# GlobE Şəbəkəsi korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın vacib platformasıdır

22 may 2025-ci ildə Bakı şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiyaya qarşı Mübarizə üzrə Qlobal Əməliyyatlar Şəbəkəsinin (GlobE Network) Altıncı Plenar İclası uğurla başa çatıb.

Tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorunun müavini, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov çıxış edib.

O, GlobE Şəbəkəsinin korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi üçün əhəmiyyətli bir platforma olduğunu vurğulayıb. Nazim Rəcəbov bildirib: "GlobE Şəbəkəsi korrupsiyaya qarşı mübarizədə beynəlxalq



əməkdaşlıq baxımından vacibdir. Bu tədbirlər dövlətlər arasında təcrübə mübadiləsini və etimadın gücləndirilməsini təmin edir". İclasda 100-dən çox çıxış və 20-dən çox panel müzakirəsi olub, 92 ölkədən 120-dən çox dövlət qurumunun nümayəndələri iştirak edib. Tədbirin yüksək səviyyədə təşkilinə görə UNODC Katibliyinə və yerli təşkilat komitəsinə təşəkkür edən Nazim Rəcəbov, Azərbaycanın korrupsiyaya qarşı qlobal mübarizəyə töhfəsini davam etdirəcəyini bildirib.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 23 may (№106).- S.5.